**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.44

# NAXÇIVAN BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİNİN MƏNBƏLƏRDƏ VƏ MƏTBUAT SƏHİFƏLƏRİNDƏ ƏKSİ (XX ƏSRİN 20-Cİ İLLƏRİ)

# REFLECTION OF THE SOCIO-ECONOMIC SITUATION OF THE NAKHCHIVAN REGION IN SOURCES AND IN THE PRESS PAGES (20S OF THE 20TH CENTURY)

**Yaşar RƏHİMOV***

**XÜLASƏ**

Məqalədə ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin XX əsrin 20-ci illərində sosial-iqtisadi vəziyyəti mənbələr və dövrü mətbuat materialları əsasında araşdırılmışdır. Məqalənin sonunda belə bir nəticəyə gəlinmişdir ki, 20-ci illərdə Naxçıvanda əhalinin vəziyyəti ağır və acınacaqlı olaraq qalırdı. Aclıq və xəstəliklər bölgədə yaşayan əhalinin vəziyyətinə mənfi təsir göstərirdi. Bundan əlavə, sosial problemlər-su azlığı və torpaq çatışmazlığı da naxçıvanlıların sosial vəziyyətinə təsirsiz ötüşmürdü.

**Açar sözlər:** *Naxçıvan, sosial-iqtisadi, XX əsrin 20-ci illəri, mətbuat, muxtar respublika.*

**ABSTRACT**

The article examines the socio-economic situation of the Nakhchivan region, an integral part of Azerbaijan, during the 1920s based on historical sources and contemporary periodical press materials. The study concludes that living conditions in Nakhchivan remained extremely difficult throughout the decade. Famine and disease had a severe impact on the population. In addition, the social conditions of local residents were further aggravated by persistent problems such as shortages of water and arable land.

**Keywords:** *Nakhchivan, social and economic issues, 20th century, press, autonomous republic.*

## GİRİŞ

Azərbaycan tarixşünaslığında yeni istiqamət alan Naxçıvan tarixinin öyrənilməsi tarix elmi qarşısında duran mühüm problemlərdəndir. Sovet hakimiyyəti dövründə ölkənin ictimai-siyasi, iqtisadi, mədəni həyatı bir mərkəzdən istiqamətləndirildiyindən Sovet respublikalarının, o cümlədən həmin respublikalara daxil olan muxtar qurumların tarixinin öyrənilməsi eyniləşdirilmişdir [Məmmədov, 2008: 157]. Bu yazımızda əlimizdə olan mövcud dövrü mətbuat materiallarından, tarixi ədəbiyyatlardan yararlanaraq, mənbələrdəki məlumatlara əsaslanıb, XX əsrin 20-ci illərində Naxçıvan MR-in sosial-iqtisadi vəziyyətinin araşdırılmasına çalışacağıq.

## XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ NAXÇIVANIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ MƏNBƏLƏRDƏ VƏ DÖVRÜ MƏTBUAT MATERİALLARINDA

Qeyd edək ki, 20-ci illərin əvvəllərində Azərbaycanın digər bölgələrindən fərqli olaraq bu regionda əsasən erməni riyakarlığı və xəyanətkarlığı nəticəsində sosial-iqtisadi vəziyyət çox bərbad halda idi. Buna baxmayaraq, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin 1931-ci ilin yanvarında keçirilən III sessiyasında göstərildiyi kimi, istər Zaqafqaziya, istərsə də Azərbaycanın hakimiyyət

*AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, e-mail: yasarrahimov@yahoo.com.
ORCID: 0009-0006-5473-8758

orqanları Naxçıvan MSSR-in xalq təsərrüfatına son illərədək nisbətən az diqqət yetirmişlər (Сокольский, 1933: 22). Bəhs edilən həmin dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana çox ögey münasibət olmuşdur. Bu biganəliyin nəticəsində sərhəd bölgəsi olan Naxçıvan diyarında çox faciəvi və təhlükəli bir vəziyyət yaranmışdı. Naxçıvan MSSR-də yaranmış vəziyyəti araşdırmaq üçün 1925-ci il mart ayının sonlarında Naxçıvana göndərilmiş fövqəladə səlahiyyətlərə malik olan Xüsusi hökumət komissiyasının üzvlərindən biri, Azərbaycan Fəhlə-Kəndli Müfəttişliyi Xalq komissarının müavini İ.Dövlətovun təbirincə deyilsə, "diyara təcili kömək lazımdır, əks təqdirdə o, Zaqafqaziyanın bədənində daim sızlayan yara olaraq qalacaqdır" [İvanov, 2009: 429].

Bəhs edilən illərdə Naxçıvan sadəcə yenə unudulmuşdu. Bölgə haqqında mətbuatda çox nadir hallarda nəsə dərc olunurdu. 20-ci illərin əvvəllərində Naxçıvan bölgəsinin Sovet hakimiyyətinin maddi-texniki yardımına böyük ehtiyacı hiss edilirdi. Vətəndaş müharibəsi illərində viran edilən, vəhşi daşnaklar tərəfindən xarabalığa çevrilən Naxçıvan Sovet Azərbaycanının hakimiyyət orqanları tərəfindən aclıq dövründə belə tamamilə unudulmuşdu. Regiona lazımi səviyyədə qayğı göstərilmədiyindən burada sənayenin inkişafı xeyli geri qalırdı. Bu geriliyin aradan qaldırılması üçün Naxçıvana göstərilən maddi-texniki yardım lazımi səviyyədə olmamışdır. Odur ki, respublika xalq təsərrüfatının bərpası əsasən 1924/25-ci ildə, Naxçıvanda isə yalnız 1926/27-ci ildə başa çatdırılmışdır [Nadirov, Nuriyev və Muradov, 2000: 21).

1920-ci ilin payızı və 1921-ci ilin yazında Naxçıvanda yaranmış dəhşətli vəziyyəti B.Vəlibəyovun 1921-cilin martın 16-da yazdığı hesabatdan aydın görmək olar. Orada deyilirdi: "Naxçıvanın 1920-ci ildəki dəhşətli mənzərəsi insanın xatirində həmişəlik qalacaqdır. Adamların baxışlarının biganəliyi, qəlblərin soyuqluğu, sifətlərin solğunluğu yaşıl bağları da, çiçəkli dağları da gözə xəzan göstərir. Çünki hər tərəfdə səfalət, aclıq, yurdsuzluq və çoxlu insan qurbanları əhalini taqətdən salmışdı. Şəhər və kəndlərdən insanların nalə və sızıltı səsləri gəlir, hər yerdə insan meyitləri ilə qarşılaşırsan" [Sadiqov, 1995: 61].

XX əsrin 20-ci illərinin əvvəllərində muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəsiz, qeyri-düzgün istifadə olunması bolgənin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərmişdir. Erməni ekstremistləri və millətçilərinin avantürasından sonra dağılan diyarda əhali tamamilə əldən düşmüşdür. Bütün sənaye, mədəniyyət və tikililər məhv edilmişdi. Məlum olduğu kimi 20-ci illərin əvvəllərinədək ermənilər Naxçıvandan mal-qara sürülərini aparmış, taxıl məhsullarını yığmış, əllərinə düşəni talayıb aparmışlar. Mənbələrin təhlilindən aydın olur ki, həmin illərdə öz ehtiyaclarına və çoxsaylı problemlərinə baxmayaraq Naxçıvanın sərvətləri yardım qismində müqavilə əsasında Ermənistana göndərilirmiş. Ermənistanın 1922-ci ilin fevralında keçirilən Sovetlər qurultayında məlum olmuşdur ki, digər respublikalar, xüsusilə də Naxçıvan olmadan ermənilər heç cür yaşaya bilməzlər [İvanov, 2009: 73]. Ermənistanın Sovetlər qurultayında səslənən faktlara diqqət edək: "...Mal-qara Şahtaxtıda tədarük olunur – 5.833 baş heyvan (diri çəkisi 47.770 pud). Onlardan 1913 baş sağmal və işlək heyvan (diri çəkisi 38 143 pud) Torpaq Xalq Komissarlığının tapşırığına əsasən yoxsul əkinçilərə paylanmışdır.

Naxçıvan Respublikası ilə xüsusi müqavilə yolu ilə orada 42.000 pud duz tədarük edə və Ermənistana gətirə bilmişik. Bu çox vacib idi, çünki bütün duz mədənləri Ermənistanın hüdudlarından kənarda yerləşir" [Bakinski raboçi, 1922, № 38].

Əsil həqiqətdə bu illərdə Naxçıvan SSR-nin Azərbaycanın ümumi ərazisindən təcrid olunması ilə əlaqədar onun Mərkəzlə və eləcə də digər regionlarla birbaşa əlaqəsinin olmaması, həmçinin daxili yolların bərbad vəziyyətdə olması və s. səbəblər bölgənin sosial-iqtisadi vəziyyətinə mənfi təsir edirdi. AMEA Tarix İnstitutunun əməkdaşı A.Məmmədov "Sovet Azərbaycanın sənayeləşdirmə planında Naxçıvan MSSR-nin yeri (1920-1940-cı illər)" adlı məqaləsində bu cəhətləri xüsusi vurğulayaraq, onu bölgənin iqtisadiyyatının inkişafını ləngidən əsas amillərdən biri hesab edirdi [Məmmədov, 2008: 158].

Ara verməyən erməni təcavüzləri və daşnak fitnəkarlıqları nəticəsində əhali doğma yurdundan baş götürüb qaçmağa məcbur olmuşdu. Şəhər dağıdılmış, kəndlər isə xarabazarlığa çevrilmişdi. Fövqəladə komissar kimi Naxçıvana gəlmiş B.Vəlibəyov Naxçıvanın 1920-ci ildəki vəziyyətini belə təsəvvür edirdi: "Aclıq içərisində can çəkişən Naxçıvan ölgün bir dənizə, bir qəbiristana bənzəyirdi. Qar ilə örtülmüş yollarda addımbaşı qaçqınların, soyuqdan donmuş insanların meyitlərinə rast gəlmək olurdu" [Sadiqov, 1995: 70-71].

"Bakinski raboçi" qəzetinin 8 mart 1922-ci il tarixli sayında bölgənin sosial-iqtisadi vəziyyəti ilə bağlı yazılırdı: "Naxçıvan diyarının bütün həyatı Naxçıvan şəhərində, Ordubadda və Noraşəndə cəmləşib. İki illik erməni-tatar ədavəti diyarın əhalisini tamamilə var-yoxdan çıxarmışdır. Xilas olanların əksəriyyəti Ermənistana və İrana köçüb.

1920-ci ilin səpini yerinə yetirilməmişdir. 1921-ci ilin yaz səpini isə o qədər cüzi olmuşdur ki, indi Naxçıvan diyarının öz taxılı yoxdur. Hal-hazırda taxıl qıtlığından bütün əkin sahələrinin yalnız 0,6 faizində səpin aparılmışdır.

Qəzalar da bu cür ağır vəziyyətdədir. Düyü və pambıq yetişdirmək üçün münbit torpaqlara malik olan Şərur qəzası toxum yoxluğu ucbatından istifadəsiz qalmışdır.

Ordubad qəzası İran çörəyi ilə dolanır. Çörəyi İran puluna almaq və satmaq lazım gəlir. Naxçıvan şəhərinin 46 verstliyində xeyli geniş bir meşə var, nəqliyyat olmadığı üçün ondan istifadə olunmur. Bundan əlavə meşə nəzarətsiz qalmışdır və o insafsızcasına oğurlanıb daşınır.

Ordubadda 6 texniki cəhətdən təchiz edilmiş ipək sarıyan maşın var, onlar işə salınsa, orda 1000 nəfər fəhlə çalışa bilər. Fabriklər əvvəlki sahiblərinə qaytarılıb və tamamilə fəaliyyətsizdirlər. Bununla əlaqədar qərar qəbul edilib, həmin qərara əsasən sahibləri bundan sonra da onları işlətmək istəməsələr, hökumət tərəfindən işə salınacaqlar. Fabriklərin işə salınmasına barama toxumunun yoxluğu əngəl olur.

Diyarın daha iri sənaye sahəsi duz mədənləridir, hazırda onlar işlək vəziyyətdədir.

Diyarda Hofman sobası ilə təchiz edilmiş kərpic zavodu, Naxçıvanda və Ordubadda dəri zavodları, Şərur sahəsində pambıq və düyü təmizləmə dəyirmanları var.

Naxçıvanda iki milyon puda yaxın sement var və o, yağış və qar altında məhv olmaqdadır.

Ordubad şəhəri yaxınlığındakı, 1914-cü ildə almanlar tərəfindən istismara götürülən mis yataqları indi tamamilə atılmış vəziyyətdədir [Bakinski raboçi, 1922, № 54).

Xüsusi hökumət komissiyasının Naxçıvan SSR XKS-in maddi-material hissəsi üzrə gəldiyi nəticəyə görə, "1921-ci ildən 1925-ci ilə qədər olan dövr ərzində Naxçıvan Diyarı üçün buraxılmış materialların miqdarını dəqiq müəyyənləşdirmək üçün Azərbaycan SSR-in XKS və MİK-də mövcud olan bütün məlumatları və sənədləri bir yerə toplamaq, əldə edilən materiallar əsasında Naxçıvan XKS-in bütün təsərrüfat – mineral sənədlərini ən detallı şəkildə təftiş etmək lazımdır, çünki materialların miqdarını buraxıldıqları yerdə, yəni Bakıda müəyyən etmədən 1921 və 1922-ci illər, həmçinin 1923-cü ilin bir hissəsi üçün mədaxil və məxarici müəyyənləşdirmək mümkün deyildir" [İvanov, 2009: 268-269].

"Bakinski raboçi" qəzetinin 14 iyun 1922-ci il tarixli sayında Naxçıvan diyarının sosial-iqtisadi vəziyyəti haqqında verilən maraqlı məlumatda yazılırdı: "Naxçıvan diyarında gözəl məhsul yetişib. Arpa yığımına başlanılıb. On gündən sonra buğda yığımına başlanacaq.

Əhalinin əvvəllər heç vaxt kənd təsərrüfatı ilə məşğul olmamış sinifləri (tacirlər, peşə ustaları) əkinçiliyə baş vurmuşdur. Səpin materialları Bakıdan bir az gec gətirilmişdir. Hər halda onun bir hissəsi səpin üçün istifadə olunmuş, bir hissəsi isə ac insanları yedirmək üçün Aclara Yardım Komitəsinə verilmişdir.

Naxçıvan diyarının 500.000 çərək taxıl, 200.000 çərəkdən çox düyü verəcəyi güman edilir. Naxçıvan diyarında əkilən torpaqların ümumi sahəsi 385 desyatinə bərabərdir.

Hal-hazırda suvarma kanallarının və kəhrizlərin əksəriyyəti baxımsız vəziyyətdədir. Yalnız onların bərpa edilməsi halında Naxçıvanın kənd təsərrüfatı həyatının canlanması mümkün ola bilər.

Kəskin şəkildə taxta və tikinti materiallarının çatışmazlığı hiss olunur. Diyarın yeganə resursu duz mədənləridir. Hələ ki onlar kustar üsulla istehsal edilir.

Duz məhsulunun daşınmasını artırmaq üçün mədənlərə yol çəkilişinə başlanılmışdır, indiyə kimi duz oradan eşşəklər vasitəsilə daşınırdı. Naxçıvanda bütün şose yolları xeyli təmir tələb edir. Hazırda bu yollarda bütün yüklər əsasən heyvan belində daşınır. Diyarın əhalisi əksəriyyət etibarilə müsəlmanlardan ibarətdir. Naxçıvan Xalq Komissarları Soveti timsalında diyar hökuməti dağıntılara məruz qalmış diyarın yenidən dirçəldilməsi üçün var gücü ilə səy göstərir. Bu işi lazımi miqyasda genişləndirməyə yalnız pul vəsaitinin yoxluğu mane olur. Tikintilər, su boruları təmir edilir, şəhər bağları, örtülü bazarlar və s. qaydaya salınır [Bakinski raboçi, 1922, № 129].

Çar hökuməti bölgənin yerli sakinləri olan azərbaycanlı əhalini işçi qüvvəsi kimi başqa işlərə cəlb edirdi. Bu Naxçıvanın ən çox əmək qabiliyyətli kənd əhalisinin müəyyən hissəsinin təsərrüfatdan ayrılmasına səbəb olurdu. Bu isə kənd təsərrüfatında ciddi şəkildə işçi qüvvəsi çatışmazlığı yaradırdı. Nəticədə Naxçıvanın kənd təsərrüfatı böhran keçirirdi.

Mənbə və sənədlərdə Sovet hakimiyyətinin qələbəsinə qədər ümumi torpaq sahəsi 508.208 desyatinə (desyatin = 1,0925 ha) bərabər olan Naxçıvanda torpaqların milliləşdirilməsi barədə məlumatlar verilir. Belə ki, Naxçıvan İnqilab Komitəsi 1921-ci ilin noyabrından Naxçıvanda mülkədar, xan, bəy və xəzinə torpaqlarının müsadirə edilib zəhmətkeş kəndlilərə paylanması haqqında dekret vermişdi. Həmin dekretə əsasən iri torpaq sahiblərindən Kəngərlinskilərin 59.117, Xan Naxçıvanskilərin 38.507, Kərbəlayı Əlixnovun 28.618 desyatin, Səfiyevlərin 5.543 desyatin, Sultanovların 2.521 desyatin, Şahingərayın 2.500 desyatin, Tərxanovun 1.515 desyatin, Yelizarovların 1.105 desyatin və b. torpaq sahələri müsadirə edilib milliləşdirilmişdi [Sadiqov, 1995: 71-72]. Qeyd etmək yerinə düşər ki, bu zaman qaçqınlar probleminə qərəzli yanaşılması torpaq məsələsi ilə bağlı ciddi çətinliklər yaradırdı. 1922-ci il iyulun 9-da Naxçıvan SSR və Ermənistana aid olan qaçqınlar məsələsi ZSFSRİ-nin İttifaq Sovetində müzakirə edildi. Əgər qaçqınlar məsələsi Zaqafqaziya miqyasında həllini tapsaydı, o zaman Naxçıvanda torpaq islahatlarının həyata keçirilməsi asanlaşardı. Lakin təəssüf ki, Zaqafqaziya İttifaq Sovetinin 1922-ci il 12 iyun tarixli qərarı Ermənistandan olan 28 min nəfər azərbaycanlı qaçqının Naxçıvanda saxlamasını qanuniləşdirməklə bu məsələdə açıqca qərəzli mövqe tuturdu [Sadiqov, 1995: 67].

Tarixi mənbələrin, mətbuat və arxiv materiallarının tədqiqindən aydın olur ki, 20-ci illərdə bölgənin təsərrüfatı çoxsahəli və rəngarəng olmuşdur. Naxçıvan əhalisi hələ qədim zamanlardan pambıqçılıqla məşğul olurdu. Əlverişli iqlim şəraiti Cənubi Qafqazın digər ərazilərinə nisbətən Naxçıvan bölgəsində, o cümlədən Şərur-Dərələyəzdə yüksək məhsuldarlığa səbəb olurdu.

1922-ci ilin iyun ayında Bakıda keçirilən "Azərittifaq"ın nümayəndələrinin 3-cü qurultayında bütün qəzalardan, o cümlədən Naxçıvandan olan nümayəndələrin hesabatı dinlənildi. Naxçıvan nümayəndələrinin Sovet hakimiyyəti dövründə qurultay iştirakçılarına ilk hesabatı maraq doğurur. Bu hesabatı XX əsrin 20-ci illərin əvvəllərində Naxçıvanın sosial-iqtisadi vəziyyəti haqqında məlumat verən və bölgədəki kooperativlərin fəaliyyətini əks etdirən sənəd kimi də qəbul etmək olar. Buradakı bəzi faktları göstərməyi məqsədəuyğun hesab edirik. "Naxçıvan diyarında 10 kooperativdə 12.000 nəfərlik əhali birləşmişdir. Onun Ordubadda, Şərurda və Naxçıvanda üç şöbəsi var. "Naxittifaq"ın aylıq dövriyyəsi 10.000 İran tüməninə bərabərdir. "Naxittifaq" hal-hazırda 10.000 pud firzon (ipək tullantısı), qeyri-məhdud miqdarda yuyulmuş və yuyulmamış yun, istənilən qədər duz və çox qiymətli məhsul olan biyan kökü təklif edə bilər; amerika və ingilis firmaları tərəfindən artıq 6 vaqon biyan kökü alınmışdır. İşlək kooperativlərin sayı 10-dur. Pay haqqı 1 rubldan 3 rubla qədərdir. Üzv olma haqqı 10 qəpikdir. Yaxın aylar ərzində Naxçıvan diyarında əsil kooperativ işi başlayacaqdır...". Hesabat "Bakinski raboçi" qəzetinin 21 iyun 1922-ci il tarixli 135-ci sayında nəşr edilmişdir [Rəhimov, 2019: 84].

1921-ci ilin 23 mart tarixində Naxçıvandan Hərbi İnqilab Komitəsinin üzvü S.Orconikidze və komandan Gekkerə göndərilmiş iki teleqramda da XX əsrin 20-ci illərində Naxçıvanın sosial-iqtisadi

vəziyyəti ilə bağlı müəyyən faktlara toxunulmuşdur. Həmin məxfi arxiv materiallarına əsaslanan R.N.İvanovun məlumatlarına əsasən “...Diyarın çörək zavodu olan Şərurda daşnaklar taxıl məhsulunu yığıb aparmışlar, Naxçıvan qəzası isə öz ehtiyatlarını buranı dolduran qaçqınlara və Qırmızı Ordu əsgərlərinə paylamışdır.

Mal-qara və hətta ev əşyaları 1920-ci ildə ordunun ehtiyacı üçün əlindən alınmışdır.

Respublikanın yeganə vəsaiti duz vəsaitidir, indiyə kimi və bu günün özündə kənar kömək olmadan, yerli güc tərəfindən istehsal olunur, respublika tərəfindən imkan daxilində bütün respublikalara və orduya müftə verilir. Naxçıvan Respublikasında fəhlə kifayət qədərdir, bu müəssisə üçün mütəxəssislər də var.

İnqilab Şurasının əmri ilə Naxçıvan Respublikasının duz istehsal etmək hüququ bu rayonda yerləşən hərbi hissələrə verilmişdir... Naxçıvan Respublikası bu akta Hərbi İnqilab Şurasının respublikanın dağıdılmış təsərrüfatını bərpa etmək üçün ölkənin təbii sərvətlərindən istifadə etmək imkanından məhrum etmək cəhdi kimi baxır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Naxçıvan İnqilab Komitəsi qeyd edilən əmrin ləğv olunması və duz mədənlərini işlətmək hüququnun Naxçıvan Respublikasında qalması barədə sərəncam verilməsini təkidlə xahiş edir; həmin əmr xüsusən də ona görə ləğv olunmalıdır ki, 16 mart 1921-ci il tarixli Moskva əmrinin 6-cı maddəsi ilə ziddiyyət təşkil edir [İvanov, 2009: 60-62].

Naxçıvandan İnqilab Komitəsinin rəhbərliyi cavab gözləmədən 1921-ci 5 may tarixində Naxçıvandan Bakıya – Azərbaycan İnqilab Komitəsinə və Tiflisə – 11-ci Qırmızı Ordunun Hərbi İnqilab Şurasına – S.Orconikidzeyə teleqram ünvanlamışdır. Arxivdə saxlanılan həmin materiallara istinad edən R.N.İvanovun məlumatlarına əsasən “...Azərbaycan İnqilab Komitəsinə məlumdur ki, ötən ilin əvvəllərində Zəngibasar və Şahtaxtının öz tarlalarında dinc və qayğısız çalışan zəhmətkeş xalqı qan-içən daşnakların hücumuna məruz qalaraq, onların güclü top atəşləri altında zəruri ev əşyalarını belə götürməyə macal tapmadan öz kəndlərini tərk etmişlər...

Hazırda rayonda çörək böhranı apogey həddinə çatıb. İnsanlar əllərinə düşəni – at, pişik, it və s. yeyir, açıq səma altında yaşayırlar. Onların təbii təhlükələrdən, çox az sayda qalmış mal-qaralarını oğurlayıb aparan İran qaçaq-quldurlarının hücumlarından qorunmaq imkanları yoxdur. Smeta və ştatlar işlənib hazırlanmışdır və ilk fürsətdəcə təqdim ediləcəkdir [İvanov, 2009: 62-63].

Xarici ticarətdən o qədər də fərqlənməyən daxili ticarətin vəziyyəti maraq doğurur. Rusiyaya daxil olan tranzit yüklər Culfa-Təbriz dəmiryolu vasitəsilə daşınır, əks istiqamətdə-İrandan qəbul edilən yüklər isə Rusiyanın daxili bazarlarına göndərilirdi. Bununla belə bölgədə ticarətin inkişafı və onun dövriyyəsini artırmaq məqsədilə müəyyən tədbirlərə – “Culfa-Bakı dəmiryolu işinin təşkilinə, kənd təsərrüfatı bankının yerli şöbəsinin açılmasına nail olmaq, kooperasiyanın fəaliyyətini genişləndirmək, Şahingirey kanalı və kəhrizlərin təchizatını, habelə suvarma təsərrüfatını canlandırmaq, malyariya ilə mübarizə aparmaq və s.” [ARDTA, v. 20] ehtiyac var idi.

XX əsrin 20-ci illərində Naxçıvan bölgəsində əkilib-becərilən kənd təsərrüfatı məhsullarının bir qismi satış üçün nəzərdə tutulurdu. Həmin məhsullar daxili bazarda müxtəlif qiymətlərə satılırdı.

Ordubad bölgəsində istehsal olunan ipək məhsulu yerli bazara çıxarılırdı. Ordubad ipəyindən hazırlanmış nəfis parçalar Rusiya və Avropa bazarlarında yüksək qiymətləndirilirdi. Əldə edilən ipək keyfiyyət etibarilə müxtəlif olduğu kimi, onun bazar qiyməti də müxtəlif idi. Milli ədavətin qızışdığı illərdə bu kustar sənaye və kənd təsərrüfatı sahələri tamamilə tənəzzülə uğramış və yalnız 1921-ci ildən etibarən tədricən canlanmağa başlamışdır [İvanov, 2009: 225]. Xaricə, xüsusilə Rusiya və İrana ixrac edilən mallar içərisində müxtəlif məhsullar özünəməxsus yer tuturdu. Ən çox ehtiyac duyulan məhsul Ordubadın quru meyvəsi olmuşdu.

Tədqiqatdan, arxiv, dövrü mətbuat və tarixi materiallardan aydın olur ki, Naxçıvanda olduğu kimi, Ordubadda da yerli ticarət o dövrün tacirləri və iri alverçilərinin əlində cəmlənmişdi. Onlar əsasən Ordubad bölgəsinin kəndlərində məskunlaşmışdılar. Tez-tez baş verən quraqlıq illərində bölgədə məhsul qıtlığı yaranırdı. 1918-1920-ci illərin erməni təcavüzkarlığının ağır nəticələrinə 1921-ci

ilin quraqlıq keçməsi də əlavə olunmuşdu. 1921-ci ilin payızı və 1922-ci ilin qışında Naxçıvan SSR-də aclıq dəhşətli şəkil almışdı. Bu quraqlıq illərində Naxçıvan Şərur mahalından gətirilmiş məhsul və ərzaqla təchiz edilirdi. Müharibə digər sahələrlə yanaşı, ticarət əlaqələrinin genişləndirilməsinə əngəl törədirdi. Sənaye məhsulları istehsalının aşağı səviyyədə olması, ərazidə tacirlərin və iri alverçilərin azlığı, yerli istehsala olan güclü tələbat və b. amillər də bölgədə ticarətin inkişafına mane olurdu.

Həmin illərdə Ordubad və Naxçıvan qadınlarının ev şəraitində toxuduqları ipək parçalara və saplara, ipliklərə xarici bazarda böyük ehtiyac duyulurdu. Bu illərdə məhdud şəkildə olsa da, Naxçıvan bölgəsindən ixrac edilən mallar içərisində ipliklər, ağ və qırmızı bez, duz, küncüd yağı var idi. Xarici bazarda ən çox satılan Naxçıvanın qırmızı bezi olmuşdur.

1921-1922-ci illərdən başlayaraq kənd əhalisinin rifah halının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülməyə başlamışdır. 1922-ci il yanvarın 28-də Naxçıvan Respublikası I Sovetlər qurultayında ərzaq vergisinə keçmək haqqında qərar qəbul edilmişdi. Naxçıvan kəndlilərinə əldə etdikləri məhsulun müəyyən hissəsindən sərbəst istifadə etmək hüququ verən bu qərar onların həyat səviyyəsinin yaxşılaşmasına o qədər də kömək etməmişdir. Bundan başqa, 1922-ci ildə yaz əkin kampaniyasını genişləndirmək məqsədilə kəndlilərə 22.500 pud buğda, payız əkini zamanı isə 30.000 pud buğda paylanmışdı [Sadiqov, 1995: 73].

Hələ 1921-ci ilin noyabr ayında təşkil edilmiş Naxçıvan İstehlak Cəmiyyəti (Naxittifaq) kəndlilərin istehlak mallarına olan tələbatını ödəməli və qaçaqmalçılığın qarşısını almalı idi. Hətta bu ittifaqın Naxçıvanın üç qəzasında üç kooperativ dükanı da açılmışdı. Bununla belə xüsusi ticarətin üstün olması və kəndlilərin alıcılıq qabiliyyətinin aşağı səviyyədə olması səbəbindən istehlak mallarını satmaq mümkün olmamışdı. Bunu nəzərə alan Azərbaycan SSR Xalq Komissarları Soveti Dövlət Bankının Culfa şöbəsini açaraq qaçqın kəndlilərə, müharibə cəbhəsində həlak olanların ailələrinə güzəştli kreditlər buraxmaqla yardım göstərmişdi [Sadiqov, 1995: 73-74].

Müəyyən vaxtlarda bölgəyə axışan qaçqınlara ərzaq, geyim və pulla kömək göstərilməsi üçün bəzi cəhdlər edilmişdi. Bunu mənbə və sənədlərdə olan faktlar da təsdiq edir. 1921-ci il fevralın 14-də Naxçıvan üçün Maku xanlığından ərzaq alınması haqqında qərar çıxarılmış və iyunun 1-də Şahtaxtı stansiyasında bu məqsədlə müqavilə imzalanmışdı [Sadiqov, 1995: 62]. Həmin mənbənin müəllifi fikrinə davam edərək 63-cü səhifədə yazırdı ki, Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov İrandan qayıdarkən (1921-ci il) Naxçıvana toplaşan didərginlərin və Naxçıvan əhalisinin ehtiyacları üçün RSFSR Xarici Ticarət Komissarlığının Naxçıvandakı müvəkkilliyinə milyon manat qızıl pul, 70 milyon manat Azərbaycan SSR-in kağız pulu, daxili işlər komissarlığının fondundan 30 min İran gümüş tüməni pul göndərilməsinə sərəncam vermişdi.

**NƏTİCƏ**

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, XX əsrin 20-ci illərində Naxçıvanda əhalinin vəziyyəti ağır və acınacaqlı olaraq qalırdı. Aclıq və xəstəliklər bölgədə yaşayan əhalinin vəziyyətinə mənfi təsir göstərirdi. Bundan əlavə, sosial problemlər-su azlığı və torpaq çatışmazlığı da naxçıvanlıların sosial vəziyyətinə təsirsiz ötüşmürdü.

## ƏDƏBİYYAT

ARDTA: F. 379, siy. 7, iş 8065, 25 v.

"Bakinski raboçi" qəzeti.

İvanov, R.N. (2009). *Basqın*. Əcəmi.

Məmmədov, A. (2008). Sovet Azərbaycanının sənayeləşdirmə planında Naxçıvan MSSR-in yeri (1926-1940-cı illər). *Naxçıvan bu gün: islahatlar, perspektivlər* [Beynəlxalq simpoziumun materialları]. Nurlan.

Nadirov, A., Nuriyev, Ə. və Muradov, Ş. (2000). *Naxçıvan iqtisadiyyatı XX əsrdə*. Elm.

Rəhimov, Y.N. (2019). *Naxçıvan: əhalisi və sosial-iqtisadi tarixinə dair (XIX-XX əsrin əvvəlləri)*. Əcəmi.

Sadiqov, S. (1995). *Naxçıvan Muxtar Respublikası tarixindən*. İrşad mərkəzi.

Сокольский, Н. (1933). Материалы по изучению Нахичеванской ССР (изд. 2, зак. ГИЗ). Тифлис.

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 22.05.2026**
**Son variant 04.06.2026**